**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
F-395 nömrəli 04 09 2020-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

# BAKALAVRİAT SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**İxtisasın (proqramın) şifri və adı:**

**050310 - Muzey, arxiv işi, abidələrin qorunması**

**Bakı-2020**

# BAKALAVRİAT SƏVİYYƏSİNİN 050310 - MUZEY, ARXİV İŞİ, ABİDƏLƏRİN QORUNMASI İXTİSASI ÜZRƏ TƏHSİL PROQRAMI

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **050310 - Muzey, arxiv işi, abidələrin qorunması ixtisası** üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

- İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirmək;
- Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri bərədə məlumatlandırmaq;
- Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və **050310 - Muzey, arxiv işi, abidələrin qorunması** ixtisası üzrə bakalavr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. 1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kompetensiyaları

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə, ən azı, bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;

- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;

- gələcək peşə fəaliyyətlərinə dair normativ və hüquqi sənədlərin tərtibinə və onlardan istifadə etməyə, pozulmuş hüquqların bərpa yollarına;
- sağlam həyat tərzini qoruyub saxlamağa;
- mədəniyyətlərarası dialoqa hazır olmağa;
- tənqid və ozünətənqid vərdişlərinə yiyələnməyə;
- yeni ideyalar irəli sürməyə və əsaslandırmağa;
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək bacarığına malik olmağa.
- ***Qeyd:*** *İxtisasın spesifikasından asılı olaraq ümumi kompetensiyalara əlavələr edilə bilər.*

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:

- Muzey və arxiv mənbəşünaslığının nəzəri problemləri,muzey mənbəyi və arxiv mənbəyu-bunların mahiyyəti və nisbəti,muzey və arxiv mənbəşünaslığının tarixi ilə bağlı nəzəri biliklərə yiyələnməlidir.
- Muzey və arxiv mənbəşünaslığının evristikası,əşyavi mənbələr,muzey və arxiv mənbələrinin öyrənilməsinin metodoloji prinsiplərini bilməlidir.
- . Mənbə informasiyalarının toplanılması və onların təhlilinin müasir metodları, mənbələrlə müstəqil çalışmaların metodikasını bilməlidir.
- Muzey və arxiv mənbələrinin elmi təsnifat prinsipləri, Azərbaycan muzey və arxivlərində mənbələrin əsas növlərinin təkamülü haqqında biliklərə yiyələnməlidir.
- Yazılı mənbə mətnlərinin axtarışı, təhlili və interpretasiyasını edə bilməyi, mənbələri təsnifləşdirmə və sistemləşdirməyi bacarmalıdır.
- Mənbələrin toplanılması üsul və metodlarına, atributsiyası, tarixinin müəyyənləşdirilməsi , təsviri və elmi tədqiqi metodikasına, müasir metodlara yiyələnməlidir.
- Muzey əşyasının tərifi və funksiyaları, komplektləşdirmənin elmi konsepsiyası muzey fondlarının komplektləşdirilməsinin məqsəd, vəzifə, istiqamət, forma və metodları haqqında sistemli təsəvvürü olmalıdır.
- Muzey əşyalarının uçot-mühafizə sənədləri informasiya sistemi, muzey toplularının elmi təşkili, muzey fondlarının struktur və tərkibi İlə bağlı nəzəri və təcürbi bilik və baçarıqlara yiyələnməlidir.
- Muzey əşyalarının təsnifatı, atributsiyası və öyrənilməsi. Muzey fondlarının elmi kataloqlaşdırılması elmi fəaliyyət kimi. Muzey mühafizəsinin elmi metodları. Muzey kolleksiyalarının fiziki cəhətdən qorunması, onların oğurluq, vandalizm aktlarından sığortalanması. Mühafizə rejimləri. Muzey əşyalarının daşınması qaydalarını bilməlidir.
- Muzey komplektləşdirilməsinin əsası kimi tarixi proses, hadisə, faktların sənədləşdirimesi nəzəriyyəsini,muzey fondlarının formalaşdırılmasının əsas istiqamət və prinsiplərini,toplayıcılıq fəaliyyətinin forma və metodlarını,muzey əşyaıarının qeydiyyat qaydalarını bilməlidir.
- Muzey toplularının elmi təşkili sistemini,muzey əşyalarının elmni təsnifat prinsiplərini, və ətraf mühitin zərərli təsirlərindən müdafiə qayda və üsullarını, muzey kolleksiyalarının elmi tədqiqi və təsviri mütodikasını bilməlidir.

Tədqiqatçılıq fəaliyyətində muzey əşyaları və kolleksiyaları ilə bağlı elmi ədəbiyyat, lüğət, məlumat kitabları, kataloqlar və digər nəşrlərindən istifadə etməyi bacarmalıdır.

- Muzey işinin xüsusi terminologiyasından düzgün istifadə etməyi,tarix və mədəniyyət abidələrinin atributsiyası zamanı elmi təsvir və metodiki tövsiyyələr üçün terminl'r lüğətindən istifadə etməklə muzey əşyasının ilkin təsvirini tərtib etməyi,muzey əşyasının tarixi və mədəni dəyəri haqqında inoformasiyanın qeydə alınmasını bacarmalıdır.
- Muzey əhəmiyyətli əşyanın tarixi, mədəni, elmi, bədii və ya memorial dəyərinin müəyyənləşdirilməsi metodikasına,muzey toplusundakı muzey əhəmiyytli əşyaların seçilməsi üçün informasiya toplusu üsullarına,çöl sənədləşməsinin aparılması vərdişlərinə yiyələnməliidir.
- Muzey fondlarının ilkin qeydiyyat sənədləşməsinin tərtibi vərdişlərinə,muzey əşyasının elmi təsviri metodikasına,muzey fondlarının qorunması sisteminin təşkili üsullarına,muzey fond saxlancları və ekspozisiyasında havanın temperaturu və ritubəti, işıqlandırılması göstəricilərinin ölçülməsi və nəzarəti qaydalarına yiyələnməliidir.
- Arxiv sənədlərinin komplektlıəşdirilməsinin əsas üsulları, arxiv sənədinin tərifi və funksiyalarını, komplektləşdirilməsinin məqsəd və vəzifələrini bilməlidir.
- Arxiv fondlarının yaradılması prinsipləri, qorunma qaydaları və rejimləri. Arxiv sənədinin mühafizə vahidini və elmi kataloqlaşdırılması üsullarını bilməlidir.
- Arxiv sənədinin təsviri üçün ilkin sənədin tərtibini,arxiv işinin xüsusi terminologiyasından istifadə etməyi, arxiv sənədinin atributsiyasının müəyyənləşdirməyi, arxiv sənədinin dəyər potensialının üzə çıxarılaraq interpretasiyasını bacarmalıdır.

Arxiv fondlarının qorunma rejiminə nəzarət etməyi,sənədləşmə işlərinin aparılması vərdişlərinə yiyələnməlidir.

- Muzeyin kommunikasiya funksiyasının həyata keçirilməsində ekspozisiyanın rolu, hazırlanma prinsip və metodları, elmi laylhələndirilməsinin əsas mərhələləri ilə bağlı nəzəri biliklərə yiyələnməlidir.
- Ekspozisiyanın bədii-memarlıq həllinin əsas vəzifələri. Ekspozisiyanın texniki işçi layihələndirməsi və montajı. Muzey əşyalarının nümayişetdirmə xüsusiyyətləri ilə bağlı nəzəri biliklərə yiyələnməlidir.
- Ekspozisiya materialları. Ekspozisiya kompleksi və ansamblı. Təsviri muzey əşyalarının nümayişetdirmə xüsusiyyətləri. Həcmli eksponatların nümayiş üsulları. Ekpsozisiyanın montajl və demontajı. Ekspozisiyanın təqdimatı. Daimi ekspozisiya və sərgilərini təşkil etməyi bacarmalıdır.
- Ekspozisiyanın yaradılmasının əsas orinsip və metodlarını,elmi layihələndirmənin əsas mərhələlərini bilməlidir.
- Ekspozisiyanın bədii memarlıq həllinin əsas mərhələlərini,həcmli və yastı eskponatların quraşdırılmasının əsas qaydaları bilməlidir.

Elmi konsepsiyanı işləməyi,tematik-ekspozisiya planının tərtibini,etiketajın hazırlanmasını bacarmalıdır.

Ekspozisiya işinin metodikasına,ekspozisiya sənədlərinin hazırlanması vərdişlərinə yiyələnməlidir.

- Muzey əşyalarından muzeyin tədris-tərbiyə funksiyasının həyata keçirilmısindəistifadə etmə vərdişlərinə yiyələnməlidir.
- Konservasiya və bərpanın əsas anlayışları, müxtəlif fakturalı (daş, taxta, şüşə, metal, rəngkarlıq, kağız, keramika və s.) əşyaların bərpa və konservasiya metod və üsullarını bilməlidir.
- Müxtəlif konservasiya və bərpa texnologiyalarının inkişaf tarixini və müasir elmi tədqiqatların əsas istiqamətləri bilməlidir.
- Konservasiya və bərpanın təşəkkül tarixinin əsas mərhələlərini,bərpa etikasını;

- konservasiya və bərpa fəaliyyətinə aid əsas istilah və anlayışları və bərpaçının üzərinə qoyulan tələbləri bilməlidir.
Fövqəladə konservasiya işlərini həyata keçirtməyi,düzgün konservasiya metodikasını seçməyi, muzey əşyalarının qorunması üçün optimal rejimin təşkilini bacarmalıdır.
Konservasiya və bərpa işlərinin keçirilmısinin əsaslarına,muzey əşyalarının inventarlaşdırılması metodologiyasına yiyələnməlidir.
- Muzeyin mədəni-təhsil fəaliyyətinin əsas mərhələləri,muzeyin mədəni-təhsil fəaliyyətinin baza formaları,muzey auditoriyası və onun öyrənilməsi ilə bağlı biliklərə yiyələnməlidir. bilməlidir.
- Ekskursiya muzeyin mədəni təhsil fəaliyyətinin aktual formalarını, muzey və məktəb arasındakı qarşılıqlı əlaqəni, muzeydə məktəbəqədərlilər və kiçik yaşlı məktəblilərlə işin əsas formalarını bilməlidir.
- . Muzeyin yeniyetmə, gənclər və tələbələrlə tərbiyə-təhsil işini, muzeylərin təhsil layihələrinin reklamları, muzey pedaqogokasını,muzey işçisinin peşə etikasını bilməlidir.
- "muzey didaktikası", "muzeyin mədəni-təhsil fəaliyyəti" anayışlarının mahiyyətini, muzeydə tərbiyə və tədrisin əsas vasitələrini,Muzeyin mədəni-tədris fıəaliyyətinin baza formalarını,muzey auditoriyasının öyrənilməsi metodlarını bilməlidir.

Konkret pedaqoji, metodiki,informasiya-axtarış, elmi, innovasiya və s. vəzifələrin həlli məqsədilə mənimsənilmiş biliklərin tətbiqini bacarmalıdır.

- Muzey auditoriyasının müxtəlif kateqoriyalarından olanlar üçün ekskursiya mətnləri və metodiki işləmələrin hazırlanmasını bacarmalıdır.
Muzeyin mədəni-təhsil fəaliyyətinin müasir formalarına,muzey auditoriyası ilə işin müxtəlif formalarının təşkili metodikasına,muzey ziyarətçisinin sosioloji cəhətdən öyrənilməsi üsullarına yiyələnməlidir.

- multikulturalizmin mahiyyətini, eləcə də onu sosial hadisə, siyasət modeli və həyat tərzi kimi başa düşməli, multikulturalizmin formalaşmasının əsas səbəbləri ilə bağlı biliklərə yiyələnməlidir.
- dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələrlə tanış olmalıdır.
- Sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş nəzəri müddəalarla tanış olmalıdır, insanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik dəyərlər və milli mentalitet, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu barədə məlumatlar ədə etməlidir.
- Multikulturalizm siyasət modelinin mahiyyəti və əhəmiyyəti, onun assimilyasiya, izolyasiya və aparteid siyasət modelləri haqqında biliklər əldə etməli, multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik barədə biliklər və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər barədə fikir yürütməyi bacarmalıdır.
- Multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı biliklər qazanmalıdır.
- mülki müdafiənin əsasları, qüvvə və vasitələri, fövqəladə hallar və onların xarakteristikaları, fövqəladə hallarda əhalinin mühafizəsi, əhalinin mülki müdafiəsi haqqında bilgilərə malik olmalıdır.
- əhalinin mülki müdafiə ilə bağlı maarifləndirilməsi, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi, fövqəladə halların nəticələrinin aradan qaldırılmasının təşkilini və həyata keçirilməsini mənimsəməlidir.

## 3.Təhsil Proqramının strukturu

**Cədvəl 1**

| Fənlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| **Ümumi fənlər** | | **30** |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafı, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu öyrənilir və təhlil edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli şəkildə öyrənilməlidir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Muzeyşünas tələbələrə bu fənn çərçivəsində ixtisasları üzrə referat , esse və elmi məqələ yazmaq, elmi mətnlərin xülasəsini (annotasiyasını) vermək, tezislər tərtib etmək, məruzə və təqdimetmələr (prezentasiya) hazırlamaq, başqa məruzələrin müzakirəsinə qoşulub müstəqil fikir yürütmək , mətnləri redaktəvə korrektə etmək öyrədilməlidir.Eyni zamanda tələbələr işgüzar (kargüzarlıq) sənədləri hazırlamağı bacarmalıdırlar. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Azərbaycan, Bakı, özü və sənəti haqqında esse yazmaq, təqdimat etmək<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində özü və peşəsi haqqında təqdimat etmək, ixtisas üzrə terminologiyanı öyrənmək, işgüzar yazı, şifahi ünsiyyət bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. Xarici dildə elementar bələdçilik unsiyyəti öyrənilməlidir. | 15 |
| | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | **6** |
| 5 | Fəlsəfə<br>Sosiologiya<br>Azərbaycan Respublikasının Konstitisiyası və hüququn əsasları<br>Məntiq<br>Etika<br>Multikulturalizmə giriş | 3 |
| 6 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş<br>Politologiya | 3 |
| **İxtisas fənləri** | | |
| 5 | **İxtisasa giriş**<br>Bu fənn bakalavra seçdiyi ixtisas haqqında icmal şəkilli ilkin biliklər- ixtisasın tarixi, məzmunu, perspektivləri haqqında məlumatlar verilir | 3 |

| | | |
|---|---|---|
| 6 | **Mədəni irs**<br>Bu fənn çərçivəsində milli irsin mühüm tərkib hissəsini təşkil edən mədəni irsin məzmunu, onun əsas komponentləri haqqında nəzəryyə ilə yanaşı, təcrübi bilikləri diqqətə çatdırmalıdır. Mədəni irsin qorunması ilə bağlı beynəlxalq, ölkə qanunvericilklərinin müddəaları, prioritetləri öyrənilməlidir. | 8 |
| 7 | **Muzey işinin əsasları**<br>Bu fənn muzey işinin ümumi nəzəri-metodoloji məsələlərini öyrətməlidir. Növbəti kurslarda muzey işinin bütün strukturlarını əks etdirən ayrı-ayrı fənnlərə keçid almazdan öncə, muzey işinin əsas istiqamətləri haqqında ilkin bilik verməlidir. Muzey işinin əsas anlayışları, nəzəriyyə və metodikası haqqında ilkin biliklər, məhz bu fənn vasitəsilə tədris olunmalıdır. | 5 |
| 8 | **Arxiv işinin əsasları**<br>Bu fənn çərçivəsində arxivlərin tarixi işinin məzmunu, əsas anlayışları öyrənilməlidir. Arxiv işinin əsas istiqamətləri, iş prinsipləri haqqında ilkin biliklər əhatə olunmalıdır. | 4 |
| 9 | **Dünya muzeyləri**<br>Bu fənnin tədrisi vasitəsilə bakalavrlar dünya muzeylərinin inkişaf tendensiyaları ilə tanış olacaqlar. Dünyanın ən mötəbər mzueylərinin tarixi, fəaliyyəti haqqında biliklərə yiyələnəcəklər. Dünya muzeylıəri ilə Azərbaycan muzeyləri arasındakı əlaqələrin müasir vəziyyəti ilə yaxından tanış olacaqlar. | 12 |
| 10 | **Azərbaycan muzeyləri**<br>Bu fənn çərçivəsində Azərbaycanda muzey işinin tarixi, onun təşəkkülü və inkişaf tendensiyaları, dinamikası öyrəniləcəkdir. Azərbaycanda muzey şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində dövlətin muzey siyasətinin əsas prioritetləri əhatə olunacaqdır. Azərbaycan muzeylərinin dünya muzeyləri ilə beynəlxalq əməkdaşlığı öyrəniləcəkdir. | 8 |
| 11 | **Azərbaycan mədəniyyət tarixi**<br>Bu fənn çərcivəsində Azərbaycan xalqının etnos kimi formalaşdığı dövrdən başlayaraq hər dövrün mədəniyyətinin xronoloji inkişaf xüsusiyyətləri tarixi və sosial-iqtisadi inkişaf prizmasından təhlil edilməli, maddi və mənəvi mədəniyyət formalaşmasının qanunauyğunluqları və təzahürləri (dil, din, əlifba, xalq sənəti, incəsənət sahələri, elm, təhsil, mətbuat və s.) barədə sistemli bilgilər verilməlidir. Tələbələr müasir Azərbaycan mədəniyyətinin inkişafı və dünya mədəniyyətində tutduğu yer barədə ətraflı məlumatlar əldə etməlidir. | 9 |
| 12 | **Məişət və geyim tarixi**<br>Bu fənn çərçivəsində dünya xalqlarının maddi mədəniyyətinin və geyim tarixinin inkişafının əsas mərhələlərinə, formalaşma istiqamətlərinə; bu sahələrdə baş verən prosesləri qiymətləndirərək sərbəst fikir yürütmək bacarığına; hər bir mərhələyə xas olan məişət və geyimin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq bacarığına diqqət yetirilməlidir. | 5 |
| 13 | **Multikulturalizmə giriş.**Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin xüsusiyyətlərini, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində | 3 |

| | | |
|---|---|---|
| | dövlətin apardığı siyasəti öyrədir. Azərbaycan Respublikasının multukulturalizm siyasətinin, sosial-mədəni proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | |
| 14 | **Mülki müdafiə.** Bu fənn çərçivəsində fövqəladə hadisələrin qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, kütləvi qırğın silahları, nüvə silahı, nüvə silahının tətbiqi və nəticələri, nüvə silahının zədələyici amilləri, radioaktiv çirklənmə, bioloji silahlardan qorunma üsulları barədə bilgilər verilir. Karantin tədbirləri, dinc və müharibə dövründə əhalinin mühafizəsinin xüsusiyyətləri fərdi mühafizə vasitələri, qəza və təbii fəlakətlər zamanı xilasetmə işlərinin təşkili və yerinə yetirilməsi qaydaları, kimyəvi silahlar tətbiq edilərkən davranış və fəaliyyət qaydaları, müxtəlif zədələnmə ocaqlarında və təbii fəlakət rayonlarında ilk tibbi yardım göstərilməsində sanitar drujinalarının təşkil olunması haqqında ən zəruri məlumatlar öyrədilir. | 3 |
| Cəmi | | **60** |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər** | |
| **Cəmi** | | **120** |
| | **Təcrübə və Yekun Dövlət Attestasiya işi** | |
| | **Təcrübə.** Təcrübə dövlət və özəl muzey və arxivlərində, tarixi-mədəniyyət yönümlü abidə və qoruqlarda, xarici ölkələrin müvafiq yönümlü ali məktəblərində təşkil oluna bilər | **21** |
| | **Dövlət Yekun Attestasiyası.** Baklalavrlar təhsil müddətinin sonunda əsas ixtisas fənlərini özündə əks etdirən bir dövlət imtahanı nəzərdə tutulur. | **9** |
| CƏMİ | | 240 |

**4. Tədris və öyrənmə**

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi universitetin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:

- mühazirə, seminarlar, praktiki tapşırıqlar;
- təqdimatlar və müzakirələr, debatlar;

- müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
- layihələr;
- problemlərə əsaslanan tədris;
- sahə işləri;
- rol oyunları;
- hesabatlar;
- qrup qiymətləndirməsi;
- ekspert metodu;
- video və audio konfrans texnologiyaları;
- video və audio mühazirələr;
- distant təhsil;
- simulyasiyalar;

***Qeyd:*** *sadalanan metodlar ixtisasın spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yetirilməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilinsin. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, universitetin veb səhifəsində, proqramın broşurlarında və s.).

5.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:
- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompyuter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları, sahə işləri hesabatları;

- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;

***Qeyd:** sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri hər bir ali təhsil müəssisəsi tərəfindən Əlavə 1-dəki formaya uyğun olaraq müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

**050310 - Muzey, arxiv işi, abidələrin qorunması ixtisası üzrə** bakalavr hazırlığı aparan ali məktəbin bütün fənlər üzrə sanitar-gigiyenik normalara cavab verən auditoriya fondu, tədris materialları və tədris vəsaitləri olan kitabxana və oxu zalı, videoteka və filmotekası, kompüter otağı, printer və skaner avadanlığı, internetə çıxışı olmalıdır.

**050310 - Muzey, arxiv işi, abidələrin qorunması** ixtisası üzrə dərs deyən professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcəsi, elmi və ya fəxri adı olan, muzey, arxiv ,qoruqlarda və incəsənətin müvafiq sahələrində çalışan təcrübəyə malik mütəxəssislərdən ibarət olmalıdır. İxtisasla bağlı digər dövlət, yaxud özəl müəssisələrdə çalışan yüksək ixtisaslı mütəxəsisilər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə respublikanın müxtəlif profilli muzeylərində, arxivlərində, eləcə də tarixi-mədəni qoruqlarında təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq obyektlərlə müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər obyektlərdə, məsələn yaşadığı ərazinin mzuey, arxiv və ya mədəniyyət qoruqlarında, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

## 9. Məşğulluq və ömürboyu təhsil

*9.1.* **050310 - Muzey, arxiv işi, abidələrin qorunması** ixtisası üzrə məzun olan bakalavrlar respublikanın müxtəlif profilli muzeylərində, arxivlərində, eləcə də tarixi-mədəni qoruqlarında işləyə bilərlər;

9.2. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

9.3. **050310 - Muzey, arxiv işi, abidələrin qorunması** ixtisası üzrə bakalavr proqramının məzunlarının təhsillərini Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması(Muzeyşünaslıq,Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi Arxiv işi və arxivşünaslıq), Sənətşünaslıq(Mədəniyyət tarixi və nəzəriyyəsi) üzrə Magistr proqramlarında davam etdirə bilərlər.
Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsil şöbəsinin müdiri

__________________Yaqub Piriyev

"26" 08 2020-ci il

Mədəniyyət və incəsənət ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını hazırlayan işçi qrupun sədri

__________________Ceyran Mahmudova

"25" 08 2020-ci il

Əlavə 1.

## Təhsil Proqramı üzrə təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) |
|---|
| **PTN-1.** Muzey, arxiv işi və abidələrin qorunması ixtisasının məqsədi və vəzifələrini, digər ixtisas sahələri ilə əlaqəsini, prespektivlərini bilməlidir. |
| **PTN-2.** Muzey, arxiv işi, abidələrin qorunması ixtisaslaşmaları üzrə anlayış apparatına, malik olmalı, tədris prosesində mənimsədikləri nəzəri bilikləri təcrübədə tətbiq etmək bacarlq və vərdişlərinə yiyələnməlidir. Muzey işinin əsas struktur bölmələrini bilməlidir. Muzey və arxivlərin idarəedilməsi vərdişlərinia, nəzəri biliklərinə yiyələnməlidir. Təhsil zamanı muzey işinin əsas istiqamətləri-muzey fondlarının komplektləşdirilməsi, muzey kolleksiyalarının qorunması, muzey ekspozisiyasının təşkili, muzeydə elmi-maarifləndirmə, yaradıcılıq, kütləvi işlərin təşkilinin nəzəri əsaslarına yiyələnməlidir. Arxiv işinin əsaslarını bilməli, arxivdə sənədli materialların axtarılmasn ı, toplanılması, komplektləşdirilməsi, fondlarda qorunması ilə bağlı həm nəzəri bilikləri bilməli, həm də təcrübi vərdişlərə yiyələnməlidir. Mədəni irsin əsas komponenti olan tarix və mədəniyyət abidələrinin özünəməxsus xassələrinə dərindən yiyələnməli, bunların hüquqi statusunun əsas dəyər meyarlarını bilməlidir. Mədəni irs sistemindən tarix və mədəniyyət abidələrinin seçim prinsip və meyarlarını bilməlidir. |
| **PNT-3.** Muzey işinin təşəkkülü səbəblərini, bu istiqamətdə toplayıcılıq, kolleksiyaçılıq fəaliyyətlərinin mahiyyətini dərindən bilməlidir. Dünyada muzeylərin inkişaf dinamikasında ictimai-sosial, tarixi və mədəni amillərin zəruriliyi haqqında elmi mənbələrə əsaslanmağı bacarmalıdır. Muzey əşyasının spesifikasını bilməli, muzey əhəmiyyətli əşya, muzey abidəsi fenomenlərinin özəlliklərinə malik olmalıdır. Muzey əhəmiyyətli əşyanın muzey əşyası, muzey abidəsinə transformasiyasının əsas prinsiplərini bilməli, bu prosesə keçidin mərhələrini bilməlidir. Muzey əşyalarının toplu, kolleksiya kimi formalaşmasının bütün mərhələlərini dərindən bilməlidir. Muzey əşyasının atributsiyasını bilməlidir. Muzey əşyasının interpretasiya edilməsi xüsusiyyətlərini bilməlidir. Muzey kolleksiyalarının komplektləşdirilməsinin prinsiplərinə yiyələnməlidir. Muzey əşyalarının növlər üzrə komplektləşdirilməsini bacarmalıdır. Muzey fondlarının strukturlarını bilməli, onların qorunma rejimlərinin incəliklərini bilməlidir. Müxtəlif materiallardan (daş, ağac, metal, qiymətli metal, şüşə, kağız, taxta, keramika və digərləri) olan ayrı-ayrı ölçülü (həcmli, yastı, böyük, kiçik, xırda) muzey əşyalarının fondlarda yerləşdirilmə prinsiplərini dərindən bilməlidir. Onların yerləşmə avadanlıqları haqqında ətraflı, dürüst biliklərə malik olmalıdır. Muzey əşyaları və arxiv materiallarının qorunması istiqamətində onların bərpa və konservasiyasının nəzəri və əməli vərdiş və bacarıqlarına yiyələnməli, onların tətbiqini bacarmalıdır. Muzey ekpozisiyasının təşkili haqqında geniş məlumatlara malik olmalıdır. Ekspozisiyanın-elmi, bədii, texniki layihələndirmə mərhələlərinə aid spesifik bilikləri bilməlidir. Bu prosesin ən mühüm özəlliyi yazılı mətnlərin düzgün həyata keçirilməsidir. Ona görə də, fikirləri, düşünülən layihələrin mətndə məntiqi şəkildə təsvir etmə bacarığına malik olmalıdır.Eksponatların ekspozisiya məkanında düzgün, estetik prinsiplərə uyğun şəkildə yerləşdirilmə üsullarını bilməlidir. Ekspozisiyanın texniki layihələndirilməsi mərhələsinin bütün etaplarını bilməli, ekspozisiya avadanlıqlarının, müasir ekspozisiya texnologiyalarını bilməlidir. Təkcə nəzəri deyil, praktiki vərdiş və bacarıqlara da malik olmalıdır. Ekpozisiyanın təbliği istiqamətində populyarlaşdırılma metod və formaları haqqında biliklərə malik olmalıdır. Xüsusilə, virtual formaların tətbiqi ilə bağlı yenilikləri bilməlidir. Xüsusi kateqoriyadan olan insanlarla- fiziki qüsurlu insanlarla iş metodlarına yiyələnməlidir. |

| |
|---|
| **PNT-4.** Muzeyin əsas iş istiqamətlıərindən biri olan elmi-tədqiqatçılıq, elmi-kütləvi işin təşkili sahələrinin spesifik biliklərinə malik olmalıdır. Muzey əşyalarının kataloqlarının, kartotekalarının, fond kataloqlarının tərtibi metodikalarına yiyələnməlidir. Muzeylərin tarixi, işinin məzmunu ilə bağlı müxtəlif növ nəşrlərin (bülleten, məqalə, məlumat və ya soraqçalar, bələdçi kitabları, monoqrafiyalar) hazırlanmasını bacarmalıdır. Muzeyin inkişafında xüsusi xidməti olmuş əməkdaşlar haqqında məlumat toplamaq, onların fəaliyyətini əks etdirən, vaxtılə tətbiq etdikləri ən yaxşı təcrübələrin yenidən dirçəldilərək tətbiqi ilə bağlı layihələrin işləməyi bacarmalıdır. Muzeyin ən mötəbər abidəsinin muzey brendi kateqoriyasında interpretasiya etməyi bilməlidir. Muzey auditoriyasının müxtə\lif təbəqədən olan ziyarətçiləri ilə davranış, ünsiyyət normalarına yiyələnməlidir. Muzey işçisinin peşə etikasının bütün norma və qaydalarını bilməlidir. Muzey ekskursiyalarının təşkili qaydalarını bilməlidir. |
| **PNT-5.** Arxiv sənədlərinin toplanılması, onların kolleksiyalarının sistemləşdirilməsi prinsiplərini bilməlidir. Arxiv fondlarının kompleksləşdirilməsi, mühafizə vahidlərinin müəyyənləşdirilməsi ilə bağlı biliklərə malik olmalıdır. Arxiv fondlarının formalaşdırılması xüsusiyyətlərini bilməlidir. Kağız əsaslı sənəd kolleksiyalarının təsnifat prinsiplərini bilməlidir. "Dəyərli sənəd", "xüsusi dəyərli sənəd" fenomenlərinin mahiyyətini, dəyər potensialını bilməlidir. Bu kateqoriyadan olan kolleksiyaların xüsusi mühafizə rejiminin məzmununu bilməlidir. Arxiv fondlarına tələb olunan qorunma rejimlərini bilməlidir. Arxiv fondlaının avadanlıqları ilə davranmağı bacarmalııdr. Arxiv əməkdaşının etik normalarını bilməlidir. |
| **PNT-6.** Tarix və mədəniyyət abidələrinin hüquqi statusunu müəyyən edən dəyər potensialının əsas meyarlarının (tarixi, bədii-estetik, ictimai-sosial, memorial, elmi-texniki) mahiyyətinə bələd olmalıdır. Hər bir meyarın təzahür və məzmun xüsusiyyətlərini bilməlidir. Tarix və mədəniyyət abidələrinin müxtəlif prinsiplər üzrə təsnifatını bilməlidirlər. Tarix və mədəniyyət abidələrinin əhəmiyyət kateqoriyasına görə bölgü prinsiplərini bilməlidir. Bəşəri əhəmiyyətli abidələrin universal dəyər katrqoriyasının məzmununubilməlidir və dəyərin interpretasiyasının aparılması bacarığına yiyələnməlidir. Azərbaycanın bəşəri əhəmiyyətli abidələrinin YUNESKO-nun Bəşəri İrs siyahısında təmsilolunma meyarlarını bilməli, təhlil və ekspertizası ilə bağlı vərdişləri bacarmalıdır. Tarix və mədəniyyət abidələrinin üzə çıxarılması, qeydiyyat alınması, elmi inventalaşdırılması prosedurasının mərhələlərini, hər mərhələninüzərinə düşən vəzifələri bilməlidir.Tarix və mədəniyyət abidəsinin atributsiyasını müəyyənləşdirməyi bacarmalıdır. Mədəni irsin müxtəlif növ və tipdən olan obyektlərinin "tarix və mədəniyyət abidəsi" statusuna keçidinin prosedur mərhələlərini bilməlidir. Tarix və mədəniyyət abidələrinin mühafizə rejimlərinin məzmununa dərindən bələd olmalıdır. Ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələrinin dəyər meyarlarını bilməlidir. Yerli əhəmiyyətli tarix və mədəniyyət abidələrinin dəyər meyarlarını bilməlidir. Tarix və mədəniyyət abidələırinin rəqəmsal qeydiyyatı haqqında biliklərə malik olmalıdır. Abidələrin mühafizəsi ilə bağlı beynəlxalq, ölkə qanunvericiliklərinin məzmununu bilməlidir. Onların təcrübədə reallaşması vəziyyəti haqqında məlumatlara malik olmalıdır. |
| **PNT-7 Məişət və geyim tarixi** fənni çərcivəsində tələbələr aldıqları biliklər əsasında konkret əsərləri atribusiya etmək, incəsənət ilə bağlı elmi mənbələri təhlil etməyi bacarmalıdırlar.İxtisas üzrə xüsusi terminologiyanı bilməli, geyim ilə tarixi dövr və aid olduğu ölkəni təyin etməyi, tarixi geyimlərin konstruktiv-texnoloji və dekorativ xüsusiyyətlərini müəyyən etməlyi baçarmalıdırlar.Bu fəni mənimsəyən tələbə nəticədə dünya xalqlarının maddi mədəniyyətinin və geyim tarixinin inkişafının əsas mərhələlərinə, formalaşma istiqamətlərinə; bu sahələrdə baş verən prosesləri qiymətləndirərək sərbəst fikir yürütmək bacarığına; hər bir mərhələyə xas olan məişət və geyimin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq bacarığına yiyələnməliidirlər.. |

Əlavə 2.

## Təhsil Proqramının təlim nəticələrinin matrisi

| Blokun adı | Fənlərin adı | Proqramın təlim nəticələri | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 |
| Ümumi fənlər | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | |
| | Azərbaycan tarixi | X | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | | | | | |
| İxtisas fənləri | İxtisasa giriş | X | | | | | |
| | Mədəni irs | X | | | | | |
| | Muzey işinin əsasları | | X | X | | | |
| | Arxiv işinin əsasları | | | X | X | | |
| | Dünya muzeyləri | | | X | X | X | |
| | Azərbaycan muzeyləri | | | X | X | | |
| | Azərbaycan mədəniyyət tarixi | | X | X | | | |
| | Məişət və geyim tariixi | | | | X | | |
| | Multikulturalizmə giriş | X | | | | | |
| | Mülki müdafiə | X | | | | X | X |
| Təcrübə | | | X | X | X | X | X |

Əlavə 3

**Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları**

| Fənnin adı | Təlim nəticələri | Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları | Hər bir təlim nəticəsi üçün istifadə olunan qiymətləndirmə üsulları |
|---|---|---|---|
| İxtisasa giriş | ▪ "Muzey" anlayışının etimologiyası, xarakteristikası ilə bağlı bilikləri mənimsəməlidir;<br>▪ Muzeydən öncəki dövrdə insanların toplayıcılıq, kolleksiyaçılıq fəaliyyətlərinin əsas motivasiyaları haqqında bilikləri mənimsəməlidir;<br>▪ Muzeylərin təşəkkül və yaranmasının tarixi modelləri haqqında biliklər əldə etməlidir;<br>▪ Muzeylərin formalaşması və inkişafı tarixində müxtəlif peşə mütəxəssislərinin fəaliyyətlərinin ümumi məzmunu ilə bağlı bilgiləri mənimsəməlidir;<br>▪ Klassik, ənənəvi və müasir muzeylərin fəaliyyət xüsusiyyətləri, fərqli və oxşar cəhətləri haqqında ətraflı biliklər almalıdır. | Mühazirə; seminar; slayd-təqdimat və debatlar; video və audio mühazirələr. | Yazılı tapşırıqlar; kompüter əsaslı testlər; hesabat; frontal sorğu, açıq müzakirələr. |
| Mədəni irs | ▪ "Mədəni irs obyekti"ni müəyyən edən əsas meyarlar (tarixiliyi, əhəmiyyətliliyi, dəyərliliyi) haqqında bilikləri mənimsəməlidir;<br>▪ Mədəni irsin tipoloji xüsusiyyətləri (daşınarlığı, daşınmazlığı, maddiliyi, qeyri-maddiliyi) ilə bağlı nəzəri-metodoloji biliklərə yiyələnməlidir;<br>▪ Daşınar və daşınmaz mədəni irs obyektlərinin təsnifatlarını mənimsəməlidir;<br>▪ Mədəni irsin qorunması ilə bağlı respublikanın dövlət və hökumət, qeyri-hökumət qurumlarının fəaliyyət istiqamətləri haqqında ətraflı biliklərə yiyələnməlidir;<br>▪ Mədəni irslə bağlı beynəlxalq təşkilatları, xüsusilə, YUNESKO və onun müvafiq şura və komitələrinin fəaliyyəti ilə bağlı ətraflı biliklər əldə etməlidir. | mühazirə; seminar; slayd-təqdimat, şifahi təqdimat və müzakirələr. | yazılı tapşırıqlar; kompüter əsaslı testlər; hesabat xarakterli çalışmalar; frontal sorğu. |

| | | | |
|---|---|---|---|
| Muzey işinin əsasları | ▪ Muzey fəaliyyətinin əsas istiqamətlərinin tarixi formalaşma mərhələlərini mənimsəməlidir;<br>▪ Muzey işinin əsas fəaliyyət sahələri olan kolleksiyaların komplektləşdirilməsi, muzey ekspozisiyası, muzeyin elmi-tədqiqatçılıq işinin məzmununu əhatə edən nəzəri biliklərə yiyələnməli və bu istiqamətlər üzrə ilkin əməli vərdişləri mənimsəməlidir;<br>▪ Muzey fəaliyyətinin əsas maliyyə mənbələri haqqında bilikləri mənimsəməlidir;<br>▪ Dünya və ölkə səviyyəsində muzey qanunvericilik bazası haqqında bilikləri əldə etməlidir;<br>▪ Muzey işinin təkmilləşdirilməsində Beynəlxalq Muzeylər Şurasının fəaliyyət istiqamətləri ilə bağlı biliklərə yiyələnməlidir. | mühazirə; seminar; parktiklər ilə görüş -dərs; video və audio mühazirələr; təqdimatlar. | yazılı tapşırıqlar; kompüter əsaslı testlər; şifahi təqdimatlar; frontal sorğu; əməli tapşırıqlar. |
| Arxiv işinin əsasları | ▪ Dünyada və Azərbaycanda arxiv işinin təşəkkülü, tarixi xronologiyası, arxivdən öncəki dövrün məzmunu haqqında biliklərə yiyələnməlidir;<br>▪ Arxiv işinin əsas fəaliyyət istiqamətləri haqqında biliklər əldə etməlidir;<br>▪ Sənədli materialların uçotu ilə bağlı nəzəri biliklərə və əməli vərdişlərə yiyələnməlidir;<br>▪ Sənədli materialların ekspertizası ilə bağlı sənədlərin dəyərinin müəyyənləşdirilməsi üzrə biliklərə yiyələnməli, ilkin əməli vərdişlər formalaşmalıdır;<br>▪ Arxiv sənədlərindən istifadənin əsas formaları haqqında biliklər əldə olunmalıdır; Arxiv sənədlərindən istifadə qaydaları haqqında biliklərə yiyələnməlidir. | mühazirə; seminar; praktiklər ilə görüş-dərs; slayd-təqdimatlar; | Yazılı və əməli tapşırıqlar; kompüter əsaslı testlər; Hesabat xarakterli çalışmalar; frontal sorğu; açıq müzakirələr.. |
| Dünya muzeyləri | • Sosial-mədəni institut kimi muzeylərin ən qədimdən başlayaraq müasir dövrə qədər təşəkkülü və təkamülü qanuna uyğunluqlarını əks etdirən biliklərə yiyələnməlidir;<br>• Dünyanın ən iri muzeylərinə məxsus (Avropa, Asiya, Afrika, Amerika) topluların formalaşma mərhələlərini bilməli və kolleksiya tərkibi haqqında biliklərə yiyələnməlidir;<br>• Dünya muzeylərinin əsas fəaliyyət istiqamətlərinin (qoruyuculuq, nümayişetdirmə,maarifləndirici, tərbiyələndirici) təşəkkülü və dinamikası prinsiplərini bilməlidir;<br>• Dünya muzeylərinin tipoloji xüsusiyyətləri haqqında biliklərə bələd | mühazirə; seminar; slayd-təqdimat, virtual ekskursiya. | yazılı tapşırıqlar; kompüter əsaslı testlər; şifahi təqdimatlar; hesabat xarakterli tapşırıqlar; frontal sorğu. |

| | | | |
|---|---|---|---|
| | olmalıdır;<br>• Dünyanın ən mötəbər muzeylərinin nüfuzunu artıran amillər haqqında biliklər əldə etməlidir; | | |
| Azərbaycan muzeyləri | • Azərbaycanda muzeydənöncəki fəaliyyətlə-kolleksiyaçılıq tarixi ilə bağlı biliklərə yiyələnməlidir;<br>• Azərbaycan Xalq Cumhuriyyəti dövründə muzey quruculuğuna edilən ilk cəhdlərin məzmunu ilə bağlı biliklərə yiyələnməlidir; "İstiqlal" muzeyinin fəaliyyəti haqqında biliklər əldə etməlidir;<br>• Azərbaycanda muzey quruculuğunun sovet dövrünün sosial-ictimai, mədəni şəraitini əks etdirən biliklərə yiyələnməlidir;<br>• Azərbaycanda muzeylərin inkişaf qanunauyğunluqlarını əks etdirən biliklərə yiyələnməlidir;<br>• Müasir dövrdə Azərbaycanda muzeylərin inkişafında dövlət siyasətinin prioritetləri ilə bağlı biliklər əldə etməlidir;<br>• Azərbaycan muzeylərinin fəaliyyəti haqqında ətraflı biliklərə yiyələnməlidir; | mühazirə;<br>seminar;<br>virtual ekskursiya, respublika muzeylərinə gəzinti, audio və video mühazirələr. | yazılı və əməli tapşırıqlar;<br>kompüter əsaslı testlər;<br>şifahi təqdimatlar;<br>hesabat xarakterli tapşırıqlar; frontal sorğu. |
| **Məişət və geyim tarixi** | | mühazirə;<br>seminar;<br>slayd-təqdimatlar, virtual ekskursiya. | Yazılı və əməli tapşırıqlar;<br>kompüter əsaslı testlər;<br>şifahi təqdimatlar;konkret abidə haqqında hesabat xarakterli tapşırıqlar (onların qeydiyyatı ilə bağlı); frontal sorğu. |
| **Azərbaycan mədəniyyət tarixi** | | | |
| Multikulturalizmə giriş | | Mühazirələr.<br>Seminarlar,<br>Dəyirmi masalar, | |

| | | | |
|---|---|---|---|
| | | Debatlar. | |
| Mülki müdafiə | | | |